## Ağciyərlərin xroniki obstruktiv xəstəliyi (AXOX) profilaktikası

### İlkin profilaktika (xəstəliyin qarşısını almaq üçün):

- Siqaretdən və digər tütün məhsullarının istifadəsindən tamamilə imtina etmək;
- Tütün çəkilən yerlərdən uzaq durmaq;
- Uşaqlıqda kəskin respirator xəstəliklərin (fəsadlar inkişaf etməmiş) diaqnostikasını, müalicəsini vaxtında və düzgün aparmaq;
- İmmuniteti möhkəmləndirmək;
- Tənəffüs sisteminin fəaliyyətini yaxşılaşdıran fiziki məşqlər etmək;
- Məişətdə və iş yerində təmizliyə riayət etmək.

### İkincili profilaktika (diaqnoz qoyulduqdan sonra xəstəliyin kəskinləşməsinin tezliyini azaltmaq üçün):

- İmmuniteti möhkəmləndirmək;
- Hər gün tənəffüs gimnastikasını etmək;
- Qrip və pnevmokoka qarşı vaxtında vaksinasiya etdirmək;
- İnhalyatorlardan düzgün istifadə etmək;
- Həkim tərəfindən təyin olunmuş müalicəyə dəqiq riayət etmək və sanator-kurort müalicəsi almaq;
- Səmərəli qida rejiminə riayət etmək.

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Buklet "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiyanın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Fəaliyyət Planı"nın 9.2.2-ci bəndinə uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

# AĞCİYƏRLƏRİN XRONİKİ OBSTRUKTİV XƏSTƏLİYİ (AXOX)

əhali üçün məlumat



## Ağciyərlərin xroniki obstruktiv xəstəliyi (AXOX):

- ağciyərlərin qarşısı alına və müalicə oluna bilən xroniki iltihabi xəstəliyidir
- müxtəlif risk faktorlarının, xüsusilə siqaretçəkmənin təsiri nəticəsində əmələ gəlir.

***Bu xəstəlik dünyada bütün ölüm hallarının 6%-ni təşkil edir. Yalnız 2015-ci ildə həmin xəstəlikdən 3 milyondan çox insan həyatını itirmişdir.***



## Ağciyərlərin xroniki obstruktiv xəstəliyinin (AXOX) əlamətləri:

- daimi öskürək
- təngnəfəslik və ya hava çatışmazlığı
- fiziki fəaliyyətin əhəmiyyətli dərəcədə çətinləşməsi

Bu əlamətlərin hər birinin ayrı-ayrılıqda müşahidə olunması AXOX demək deyil. Ona görə son diaqnoz qoymaq üçün həkimə müraciət edib müayinələrdən keçmək lazımdır!

## Ağciyərlərin xroniki obstruktiv xəstəliyinin gedişatı 2 cür olur:

**Birinci**: ağciyərlərdə irinli-iltihablı proseslər inkişaf edir. Xəstədə şiddətli öskürək, çoxlu bəlğəm ifrazı, ödəm və göyərmə müşahidə olunur.

**İkinci**: təngnəfəslik, hava çatışmazlığı olur və nəfəs vermə çətinləşir. Xəstədə çəhrayı-boz yanaqlar və çəllək formasında döş qəfəsi müşahidə olunur.

## Ağciyərlərin xroniki obstruktiv xəstəliyinin risk faktorları:

- Aktiv tütünçəkmə;
- Passiv tütünçəkmə (tütün tüstüsü ilə nəfəs alma);
- Uşaqlıqda aşağı tənəffüs yollarının iltihabı xəstəliyinin tez-tez keçirilməsi və tam müalicə olunmama;
- Qapalı mühitlərdə çirklənmiş hava ilə nəfəs alma;
- Atmosferin çirklənməsi (zəhərli maddələr);
- İş yerlərində kəskin kimyəvi maddələr və ya həddən artıq tozların olması.




**Bu xəstəlikdən tamamilə sağalmaq mümkün olmasa da, xəstəliyin vaxtında qarşısını almaq və inkifaşını ləngitmək olar.**